# Suraxanıda Milli Mətbuatın yaranmasının 140 illik yubileyi qeyd olundu

**Suraxanı rayonunda Azərbaycan Milli Mətbuatının yaranmasının 140 illik yubileyi münasibəti ilə 21 iyul 2015-ci il tarixdə Suraxanı Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə Heydər Əliyev Mərkəzində konfrans keçirilmişdir.**



Konfrans iştirakçıları əvvəlcə Ulu Öndərin Heydər Əliyev parkında ucalan abidəsini ziyarət etmiş və Suraxanı rayonu Heydər Əliyev Mərkəzi ilə tanış olmuşlar.

Mərkəzin Elektron lektoriya zalında keçirilən konfrans dövlət himninin səsləndirilməsi ilə başlandı. Konfransda məruzə ilə çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Sevinc Hüseynova qeyd etdi ki, bu günlərdə ölkəmizin hər yerində Milli Mətbuatın yaranmasının 140 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilir, Milli Mətbuat Günü geniş qeyd olunur.

Dövrünün görkəmli ziyalısı Həsən bəy Zərdabinin 22 iyul 1875-ci ildə nəşr etdirdiyi "Əkinçi" qəzeti ilə əsası qoyulmuş Azərbaycan milli mətbuatı bütün dövrlərdə həqiqət carçısı olmuş, cəmiyyəti düşündürən problemləri, dövrün mütərəqqi ideyalarını əks etdirmiş, xalqımızın maariflənməsində, milli və bəşəri dəyərlərin təbliğində mühüm rol oynamışdır.

Sevinc Hüseynova qeyd etmişdir ki, Azərbaycan Respublikasının 1995-ci ilin noyabrında ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiyasının 50-ci maddəsində söz, azad məlumat toplamaq azadlıqları, öz baxışlarının azad ifadə edilməsi və digər azadlıqlar möhkəmləndirilib. Digər Qanunvericilik aktlarında da möhkəmləndirilmiş azadlıqlar - vətəndaşların qanuni yolla informasiya tapmaq, almaq, hazırlamaq, ötürmək və yaymaq hüquqları dövlət təminatına əsaslanır. Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin 1998-ci il 16 avqust tarixli "Azərbaycan Respublikasında söz, düşüncə və informasiya azadlığının təmin edilməsi tədbirləri haqqında" fərmanı ilə ölkədə kütləvi informasiya vasitələri üzərində senzura ləğv edilib. Bu fərman kütləvi infromasiya vasitələrinin sürətli inkişafına ciddi təkan verməklə yanaşı, onların rasionallığının artırılması sahəsində geniş Dövlət Proqramının əsas istiqamətlərini müəyyən edib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu ilin martında imzaladığı sərəncamla Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb. Fondun yaradılmasında məqsəd Azərbaycanda fikir, söz və məlumat azadlığı şəraitini yaxşılaşdırmaq, o cümlədən buna xidmət edən kütləvi informasiya vasitələrinə dövlət dəstəyidir. Suraxanı rayon İcra Hakimiyyəti Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu ilə sıx əməkdaşlıq edir və mütəmadı birgə tədbirlər təşkil edir.

Konfransda çıxış edənlər qeyd etdilər ki, milli özünüdərkin bərqərar olmasında, vətənpərvərlik hisslərinin aşılanmasında, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynamış Azərbaycan mətbuatı xalqımızın azadlıq və müstəqillik uğrunda mübarizəsinə öz böyük töhfəsini vermişdir.

Sonda bir qrup mətbuat işçisi qiymətli hədiyyə ilə mükafatlandırıldı.

**Rauf İLYASOĞLU,**
**"Respublika".**